# Ana qucağından qaynar həyata

Şəddat Cəfərovun mütəxəssis və şəxsiyyət kimi formalaşmasında onun təlim-tərbiyə, təhsil aldığı ocaqların əvəzsiz rolu var. Ancaq buraya qədərki qeydlərdə də haqqında əhatəli danışdığımız, mühüm tərbiyə ocaqlarından biri kimi xarakterizə etdiyimiz ana qucağı məktəbi Şəddata ömrü boyu şərəflə qoruduğu halallıq dərsi vermişdi. Bu dərsi o, zaman-zaman həyatının mənası kimi xatırlamış, onun əsas cizgilərini ideyaya, amala çevirmişdir: "Mən hər vaxt anamın işıqlı obrazını çətinə düşəndə gözlərimin önündə görürəm. Elə bil ki, qarşımı kəsən qaranlıqlar onun işığı ilə bir anda dağılır. Nə qədər bədxahlarım olubsa da, onların qurduğu tələlərə, hiylə torlarına düşməmişəm. Səbəbi də bu olub ki, anamın verdiyi halallıq dərsinin tələblərini gözləmişəm. Nəyə nail olmuşamsa, bu halallığın sayəsində əldə eləmişəm". Şəddat Cəfərovun bu düşüncələri göstərir ki, o, ana qucağı məktəbini xüsusi mükəmməlliklə başa vurub. Bu məktəbin özülü halallıq üzərində qurulduğundan onun yetirməsi də bu məktəbin adına layiq böyümüşdü.

Şəddatın atası Muğdat müharibədən qayıtdıqdan sonra kənddə qalmaq istəmədi. Bu barədə Fatma Həsənqızı öz romanında geniş söhbət açır. Böyük ailəni kənddə dolandırmağın çətinliyi bir tərəfə, axı onun oğlanları da mükəmməl təhsil almaq istəyində idilər. Fatma Həsənqızının sənədli romanındakı "Yenidən Bakıda" fəslində ailənin həmin dövrə aid olan vəziyyəti reallığı əks etdirir. Yazıçı öz oxucusuna tərəddütləri də, istəkləri də, ailə həyatının çətinliklərini də bu hissədə göstərə bilib: "Onlar artıq Bakıya köçmüşdülər. Ancaq Nəsibə hələlik kənddə qalmışdı. Xudadat 44 saylı məktəbi bitirmişdi. O, "Azərnəşr"də korrektor işləyirdi. İşgüzar və mehriban olduğundan istər nəşriyyat, istərsə də mətbəə əməkdaşları arasında özünə dostlar da qazanmışdı. Ağadat və Şəddat 44 saylı məktəbin aşağı sinfində oxuyurdular. Hər iki qardaşın sevimlisi Törə müəllimə onların təhsilinə xüsusi diqqət yetirirdi. Şəddat yaxşı oxuyurdu. Çalışqanlığı ilə sinif uşaqlarından fərqlənirdi. Muğdat Törə müəllimdən Şəddatın hafizəli, bacarıqlı olması, çalışqanlığı barədə eşitdiklərinə çox sevinir və ürəyi fərəhlə dolurdu. Belə vaxtlarda deyirdi: -Balalarım, oxumaq səadəti bizə qismət olmadı. Siz isə yaxşı oxuyun. Biliyiniz çox olsa, arzunuza, istəyinizə də tez çatarsız. Mən də, ananız da, Xudadat da sizin oxumağınız üçün əlimizdən gələni əsirgəmərik. Şəddat atasının və anasının savadsız olmasına çox təəssüflənirdi. Hətta bir neçə dəfə oxumağı, yazmağı atasına öyrətmək üçün cidd-cəhd göstərmişdi. Ancaq Muğdat böyük ailənin möhnətinə dözmək, onlara min bir qayğı göstərməkdən imkan tapmırdı ki, Şəddatın verdiyi "dərsi" öyrənsin". Bu çox maraqlı məqamdır. Şəddat hələ şagird olanda zəmanənin təhsilə verdiyi önəmi kifayət qədər anlamışdı, ona görə də heç olmasa atasının, anasının qismən savad almasını istəyirdi. Bu istəyin özündə kiçik yaşlı bir uşağın, təhsilə önəm verən yeniyetmənin təbiəti çox aydın görünür. Əslində, bu ailə taleyin bütün girdablarından ona görə keçə bilmişdi ki, bütün həyatlarını doğruluq, düzgünlük üzərində qurmağa üstünlük vermişdi.

Bakı mühiti yeni bir hava ilə nəfəs almaqda idi. İnsanların qurmaq, yaratmaq eşqi coşub-çağlayırdı. Belə bir mühitdə Xudadat da, Şəddat da öz yerlərini tapmalı idilər. Hələlik onlar yaxşı oxumaqla, biliklərə yiyələnməklə özlərini gələcəyə hazırlayırdılar. Artıq aydın idi ki, onlar bir daha kəndə qayıtmayacaqdılar. Keçmiş repressiyaların nisgili də onların yaddaşından silinib getməmişdi. Kənddə qalmış ananı da şəhərə gətirmək zərurətə çevrildi. Doğrudur, Nəsibə ana kənddən ayrılmaq istəmirdi, çünki o, böyük zəhmətlə dədə-baba yurdunu abad etmişdi. Ancaq həyat bəzən insanların istəkləri ilə barışmır. Nəsibə ananın kənddən şəhərə köçmək əhvalatı xüsusi ağrı ilə müşayiət olunur. Fatma Həsənqızının kitabından oxuyuruq: " ...Nəsibə kənddə tək qala bilmədi. Nəhayət, Bakıya, balalarının yanına qayıtmaq qərarına gəldi. Ancaq doğma ocağı, min bir əzab-əziyyətlə ərsəyə gətirdiyi doğma həyət-bacasını, ev-eşiyini çıraqsız qoyub getmək qəlbini ağrıdırdı.- Hər dəfə çətinliyə düşəndə dayısı Əbülfəzlə məsləhətləşdiyi kimi, yenə də onun fikrini bilmək istədi. Dayısına dedi:-Əbülfəz dayı, ancaq ev-eşiyi, həyət-bacanı kimsəsiz qoymaq istəmirəm". Nəsibə ananın öz kəndindən, evindən ayrılmamaq istəyi özünün təbiəti ilə bağlı idi, amma həyat öz tələbini çox sərt qoyurdu. Hər halda bu qadının yurda sədaqəti böyük insani hissin təzahürü idi. O, yurdundan ayrılmağa da xüsusi bir hadisə kimi baxırdı. Ona görə də bu ayrılıq üçün dayısından da, digər qohumlarından da razılıq almaq bir növ halallıqla ayrılmaq qərarına gəlir. Ən çətin günlərdə ona dayaq olan dayısına müraciət etməsi də bu cəhətdən başa düşüləndir. Həyatın hər cür çətinliklərini görmüş, ağırlıqlarını çiyinlərində daşımış Əbülfəz kişi də ləyaqət sahibi idi. O da kənddəki evin sahibsiz qalmağını istəmirdi; onun bu məsələyə münasibəti də oxucuda xüsusi maraq doğurur: " -Bu barədə qohumlarla da danışaram. Görüm nə deyirlər,-deyə o, bacısı oğlu Mirəligilə yollandı. Onu da məsələdən xəbərdar etmək məqsədi ilə dedi: -Mirəli, Nəsibə Bakıya qayıtmaq istəyir. Sən müvəqqəti də olsa onlara köç. Ev-eşiyə hayan ol". Bu bir neçə cümləlik dialoq göstərir ki, insanlar yurdu sadəcə cansız daş-divar kimi təsəvvür etmirlər, yurda canlı varılq kimi baxırlar. Mətnin gerisində oxuyuruq: "Mirəli dayısının məsləhəti ilə razılaşdı. Nəsibə kənddən Bakıya- balalarının yanına köçdü.Bu illər həmin illər idi ki, xalqımız müharibədən təzə çıxmışdı. Müharibənin yaraları yavaş-yavaş qaysaqlayırdı, insanların üzü gülümsəməyə başlamışdı. Ümumi əhval-ruhiyyə tədricən yüksəlirdi". Beləliklə, ailə Bakıda bir yerə toplaşdı. Heç bir maddi çətinlik bundan sonra da Muğdatın, Nəsibə ananın iradəsini qıra bilmədi. Onların gələcəyə inamlarının üzərinə kölgə düşmədi, mehribanlıq, sevgi, sədaqət hissləri ilə bir-birinə bağlı olan Muğdatın və Nəsibənin yeni özladları da dünyaya gəlməkdə idi. Və, əlbəttə, bu fonda Ağadat da, Şəddat da kifayət qədər həyata hazırlıq yolu keçmişdilər. Xudadat isə artıq ailəyə kömək edə bilirdi.

Şəddatın ilk gənclik çağlarının motivini göstərən romanın maraqlı səhifələri bu günün insanında da xüsusi hisslər oyadır, yəni, hər kəs inanır ki, hər cür çətinliyin bir sonu var. Necə ki, Muğdatın və Nəsibə ananın birgə qurduğu ailə sarayının gur işıqları bu həqiqəti təsdiqləyir: "...Ailədə daha üç uşaq dünyaya gəldi: Abdulmanaf, Fərhad və Raziyyə. Şəddat artıq böyük oğlan olmuşdu. Özündən kiçik qardaş və bacılarının qayğısına qalmağı və onların dərsinə kömək etməyi çox xoşlayırdı. Özü dərslərindən həmişə "beş" alırdı. Riyaziyyat fənnini xüsusi ilə sevirdi. Bacı-qardaşlarından başqa, sinif yoldaşlarına da yaxından kömək edirdi. Onların sinfində Arif adında tərbiyəli oğlan var idi. ancaq zəif oxuyurdu. Sinif rəhbəri Şəddata dedi: -Şəddat, Arifi sənə təhkim edirəm. Ona dərslərində kömək et. Şəddat həmin gündən Ariflə məşğul olmağa başladı. Arif Şəddatgilin evinin yaxınlığında yaşayırdı. Anası evdar qadın idi, atası bənnalıq edirdi. Valideynlərin hər ikisi çox mehriban və hədsiz qayğıkeş idilər. Şəddat Arif ilə məşğul olmaq üçün onların evinə gedirdi. Onun gəlişindən Arifin ata-anası çox şad olurdu. Arifgilin evi ikimərtəbəli idi. şəddatgil ikinci mərtəbədə məşğul olurdular. Aparılan səmərəli inadlı məşğələlər öz bəhrəsini verdi. Arif gündən-günə yaxşı oxumağa başladı. Ata-anasının sevinci yerə-göyə sığmırdı". Bu mühitdə diqqəti çəkən əsas cəhət odur ki, tərbiyənin əsasları ailədə düzgün qoyulanda onun yeni nəslin həyatına ciddi-əsaslı təsiri olur. Əlbəttə, bu yöndə Şəddat və onun mənsub olduğu ailənin övladlarının taleyi kifayət qədər tutarlı fakt və sübutdur.



Sovet dövründə bəlkə də ailə tərbiyəsinə qədərincə önəm verilmirdi. Sovet ideologiyası istəyirdi ki, gənc nəsil əslinə-kökünə bir o qədər də bağlı olmasın, amma Şəddatın mənsub olduğu ailənin timsalında ailə tərbiyəsinin nəyə qadir olduğu tam aydın görünür. Müharibənin ağır illərində bir ana təkbaşına övladlarını çox böyük ləyaqətlə böyüdüb boya-başa çatdırmışdır. Həyat irəli getdikcə, zaman dəyişdikcə yaşama əsaslı təsir göstərə bilirdi və biz ana quçağı məktəbindən keçmiş insanın taleyində ailə tərbiyəsinin nəyə qadir olduğunu çox aydın görə bilirik. Sənədli romanın ayrı-ayrı fəsilləri əslində ailə tərbiyəsinin ən xarakter cizgilərini üzə çıxardır: "Şəddat nəinki sinifdə, hətta məktəb şagirdləri arasında belə qabaqcıl idi. Ancaq hərdənbir dəcəlliyi də olurdu. Yeddinci sinifdə oxuyarkən bir dəfə Şəddat nəsə dəcəllik etdi. Ondan belə hərəkətləri gözləməyən sinif rəhbəri Həcər müəllim narazı qaldı və onu danladı. Bununla ürəyi soyumayıb dedi: -Şəddat, riyaziyyatdan "beş" almayacaqsan. Bəli, bu, Şəddat üçün ağır cəza idi. O, bu cəzanı heç cür qəbul edə bilmirdi. Riyaziyyatdan "beş almamaq" hədəsi onu yaman fikrə salmışdı. Lakin ruhdan düşmədi. Bütün qüvvəsini toplayaraq qarşıdakı riyaziyyat imtahanından "əla" qiyməti almaq üçün gecə-gündüz çalışdı. Riyaziyyat kitabını əvvəldən-axıra kimi öyrənib misal və məsələləri bir- bir həll etdi. İmtahandan "beş" aldı. Ürəyi rahat oldu. Günlər, aylar keçdi. Şəddat böyüdü. Ailənin ən işgüzar və ən qayğıkeş övladına çevrildi. Ailədə onu çox istəyirdilər. Nəsibə bir ana kimi ailədə çox möhkəm qanun-qayda yaratmışdı. Axşamlar hamı vaxtında evdə olmalı idi". Ailə tərbiyəsinin əsas motivi insanlıq hisslərini övladın təbiətinə hopdurmaqdan ibarətdir. Əgər bu insanlıq hissləri uşaq yaşlarında şəxsiyyətin mənəvi mühitinə hopmasa, şəxsiyyətdə anti insani hisslər kök atar, insan cəmiyyət üçün zərərli fərd kimi üzə çıxar. Amma bu ailənin mənəvi siması sözün həqiqi mənasında ata-ananın, şərəfli keçmişi olan bir nəslin siması idi. Böyük ailə, sanki, saat mexanizmi kimi dəqiq işləyir, ümumi vəziyyəti müəyyən ahəngdə saxlaya bilirdi. Fatma Həsənqızı, əsərində elə bil ki, bu mexanizmin ahəngini təyin edən vəziyyəti təsvir edir: " Ailə böyük idi. Uşaqlar ildən-ilə boy atır, yaşa dolurdular. Böyüdükcə onların xərcləri də çoxalırdı. Ailədə isə Muğdat və bir də Xudadat işləyirdi. Muğdat həyatda pis adamlardan, mərdimazarlardan aldığı zərbələrin, çəkdiyi əzab-əziyyətin təsirindən vaxtından tez qocalmış və xəstələnmişdi. Əvvəlki kimi evə qazanc gətirə bilmirdi". Başa düşüləndir, repressiyalardan, müharibə alovlarından keçmiş olan ananın böyük ailəni tam təmin etməyə gücü çatmazdı və bu da istər-istəməz orta məktəbin yuxarı siniflərinə çatmış övladlar üçün müəyyən mənada borc hissi yaradırdı. Şəddat özü də artıq işləmək, ailəyə köməklik göstərmək niyyətində idi: "Ailənin vəziyyəti 16 yaşlı Şəddatı çox düşündürürdü. Gecə-gündüz fikirləşib ata-anasına necə kömək etmək üçün yollar arayırdı: -Ata, artıq 7-ci sinfi bitirdim. - O, şəhadətnaməsini çıxarıb atasına verdi. - Bu da mənim sənədim. İşləyəcəm". Oğul belə aydın təfəkkürlə həyata münasibətini bildirirsə, bu, atada qürur doğurmaya bilməz: "Muğdat sevindi. Şəhadətnaməni götürüb, o üz-bu üzünə baxdı: - Mübarəkdir, oğlum, - dedi. Hamının diqqəti Muğdatda idi. "Mübarək" sözündən sonra daha nə deyəcəyini səbirsizliklə gözləyirdilər. Şəddat da içində narahatlıq keçirirdi: "Birdən atam işləməyimə razı olmasa..." deyə fikirləşirdi. Nəhayət, Muğdat kişi dilləndi: - Oğlum, artıq böyümüsən, həyatı başa düşürsən. Onu da hiss edirəm ki, ailənin ağırlığına sən də əl uzatmaq arzusundasan. Sağ ol, bala, belə düşünməyin məni sevindirdi. Ürəyim dağa döndü. Ancaq mənim aləmimdə hələ sümüklərin bərkiməyib. Sənə işləmək tezdir. Məsləhətim budur ki, oxumağa davam edəsən, Xudadatla evi birtəhər dolandırarıq". İradənin, mənəvi borcun diqtəsi ilə Şəddat Cəfərov öz mövqeyindən geri çəkilmir, çünki o, işləyə-işləyə oxumağın da mümkün olduğunu bilirdi. Elə bu səbəbdən də hansı yolu seçəcəyini artıq dəqiqləşdirmişdi: "Şəddat atasının mövqeyinin belə olacağını əvvəlcədən hiss etmişdi. Odur ki, atasına verəcəyi cavabı qabaqcadan hazırlamışdı: -Ata, çətini işə girməkdir. Mən işləyə-işləyə elə öz məktəbimdə gecə növbəsi oxuyub onuncu sinfi bitirərəm və ya texnikumda oxuyaram. Sən heç narahat olma. Bu barədə qardaşım Xudadatla da söhbət etmişəm. O, işə girməkdə mənə kömək edəcək. Bircə sənin razılığını, xeyir-duanı istəyirəm. Muğdat bir qədər fikirləşdi: -İndi ki iki qardaşın fikri birdir, nə deyirəm ki, mən də razıyam. Bütün diqqəti Muğdatda olan ailə üzvləri ondan "razıyam" sözünü eşitdikdə sevindilər". Beləliklə, insan həyatının dəyişən mənzərələrini görmək, onun yeni rəngləri ilə tanış olmaq hər kəsdə maraqlı təəssürat yaradır. Həqiqətən, insan təbiəti özündən əvvəlki həyatın təcrübəsini əxz etməkdən məmnunluq duyur.

Beləliklə, ana qucağı məktəbindən qaynar həyatın özünə can atmaq, şəxsi inamla müşayiət olunur. Şəddat Cəfərovu həyatı boyu uğurlara aparan yolun əsas təminatçısı elə bu inamı olub.

İnam Şəddat üçün əsl həyat işığıdı; nəinki dünən, elə bu gün də...

*07.06.2021*

Ə .R.Xələfli